**Dövlət Statistika Komitəsində gənc statistiklər arasında aktual mövzularla bağlı açıq debat təşkil olunmuşdur.**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Dövlət Statistika Komitəsinin 2013-cü il 22 fevral tarixli 25/t nömrəli əmri ilə təsdiq edilmiş xüsusi plana uyğun olaraq, Dövlət Statistika Komitəsində aprel ayının 16-da gənc statistiklər arasında statistika sahəsi üzrə aktual mövzularla bağlı açıq debat təşkil olunmuşdur. Açıq debatın təşkilində əsas məqsəd gənclərin cəmiyyətdə statistika məlumatları, çalışdığı və inkişafında rol oynadığı təşkilatın mövqe və nüfuzu ilə bağlı müzakirələrdə potensialının artırılması, liderlik və hazırlılıq qabiliyyətinin inkişaf etdirilməsi olmuşdur. Debatın mövzusu gənc, habelə digər statistika mütəxəssisləri tərəfindən irəli sürülmüş təkliflər arasında üstünlük təşkil edən mövzular əsasında formalaşmışdır. İclasda "Statistika və google" üstün və mənfi cəhətlər; Statistikanın cəmiyyətdə rolu; Milli hesablar sistemi necə təşkil olunur?; Azərbaycanda milli hesabların yaranma tarixi və inkişafı; Dövlət Statistika komitəsində statistik metaməlumat sistemi; İnflyasiyanın iqtisadi inkişafa təsiri; İnflyasiya və pulun dəyərsizləşməsi arasında qarşılıqlı əlaqə haqqında məsələlər müzakirə olunmuşdur.

